## Əməkdaşlıq fəaliyyətləri

- AQTA ilə Almaniyanın müvafiq qurumları arasında qida təhlükəsizliyi, bitki və heyvan sağlamlığı sahələrində mütəmadi əməkdaşlıq həyata keçirilir.
- Almaniyanın qida təhlükəsizliyi sisteminin beynəlxalq standartlara və Azərbaycan Respublikasının milli qida təhlükəsizliyi sisteminə uyğunluğunu nəzərə alaraq, həmçinin aparılmış təhlillərə əsaslanaraq, Azərbaycan Respublikasının "Qida təhlükəsizliyi haqqında" Qanunundan irəli gələrək 2025-ci il 1 avqust tarixində Almaniyanın qida təhlükəsizliyinə nəzarət sisteminin ekvivalentliyinin tanınması barədə AQTA tərəfindən qərar qəbul edilmişdir. Bununla əlaqədar olaraq, Almaniyanın yüksək riskli qida və yem məhsulları istehsal edən müəssisələri Agentlik tərəfindən əlavə qiymətləndirmə tədbirləri aparılmadan Almaniyada qeydiyyata alındıqdan və (və ya) təsdiq edildikdən sonra öz məhsullarını Azərbaycan Respublikasına ixrac edə biləcəklər.
- 2025-ci il 10 mart tarixində AQTA-nın sorğusu əsasında Almaniyanın Federal Səhiyyə Nazirliyinin portfelinə daxil olan Dərmanlar və Tibbi Cihazlar üzrə Federal İnstitutunun nümayəndələri ilə virtual formatda görüş keçirilmişdir. Görüşdə mineral sular və müalicəvi suların fərqləndirilməsi, etiketlənməsinə dair Almaniya təcrübəsi öyrənilmişdir.
- 2024-cü il 24-28 iyun tarixlərində BFR tərəfindən virtual formatda "Qida təhlükəsizliyi üzrə risklərin qiymətləndirilməsi və əlaqələndirilməsi" mövzusunda keçirilmiş təlimdə AQTA nümayəndələri iştirak etmişdir.
- 2024-cü il 5 iyun tarixində AQTİ-də Almaniyanın Leibniz İnstitutunun "Almaniya mikroorqanizm kolleksiyası və hüceyrə kulturası" Mərkəzinin Bitki virusları şöbəsinin rəhbəri Stefan Uinterlə görüş keçirilib. Görüşdə İnstitutun laboratoriyalarının maddi-texniki bazası, kadr potensialı və beynəlxalq əməkdaşlığı barədə məlumat verilib. Stefan Uinter AQTİ-nin laboratoriyalarını ziyarət edib, xüsusilə Mərkəzi Fitosanitar Laboratoriyanın bitki və bitkiçilik məhsullarında zərərli orqanizmlərin aşkarlanması və diaqnostika işləri ilə tanış olub.
- 2024-cü il 18-25 fevral tarixlərində AQTİ-nin Elmi Araşdırmalar Mərkəzinin əməkdaşları "EC TAIEX Study Visit/84174" layihəsi çərçivəsində Almaniya Federativ Respublikasının Risklərin Qiymətləndirilməsi İnstitutuna (BFR) təlim səfərində olmuşdurlar. Həmin səfərdə BFR ilə AQTİ arasında əməkdaşlığın genişləndirilməsi məsələləri müzakirə olunmuşdur.
- AQTİ Analitik Ekspertiza Mərkəzinin Mərkəzi Fitosanitar Laboratoriyasının əməkdaşı Bitki Karantini və Mühafizəsi üzrə Avropa və Aralıq Dənizi Təşkilatının (EPPO) "Jens-Georg Unger Plant Health Fellowship" təqaüd proqramına layihə ilə müraciət etmiş və təqaüdü qazanmışdır. Nəticədə, o 2024-cü ildə 6 ay müddətində (fevral-avqust) Almaniya Federativ Respublikasının Braunşveyq şəhərində yerləşən və dünyanın ən böyük bioloji resurs mərkəzlərindən biri olan Leibniz İnstitutunun nəzdindəki "Almaniya mikroorqanizm kolleksiyası və hüceyrə kulturası" mərkəzinin laboratoriyasında təcrübə keçmişdir.